# Partiyalar haqda yeniləşdirilmiş qanun və siyasi mədəniyyətin təkmilləşmə perspektivləri...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması

**Milli Məclisdə təmsil olunan bütün siyasi partiya nümayəndələrinin müraciəti əsasında "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi hazırlanıb. Sənədin ictimai əhəmiyyətini nəzərə alaraq, qanun layihəsi ilə bağlı siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, politoloqların və sosial media nümayəndələrinin iştirakı ilə ictimai dinləmələr keçirilib.**



Bu dinləmələrdə və ictimai müzakirələrdə qanun layihəsi ilə bağlı verilən təkliflər, səslənən fikirlər, qeydlər nəzərə alınıb.

"Siyasi Partiyalar haqqında" yeni qanun layihəsinə görə, sənəd Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin (Milli Məclisinin müəyyən etdiyi ümumi qaydalar) 1-ci (Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquqların və azadlıqların dövlət təminatı) və 10-cu bəndlərinə (fiziki və hüquqi şəxslərin statusu) uyğun olaraq, siyasi partiyanın təsis edilməsi, dövlət qeydiyyatı, fəaliyyətinin yoxlanılması, dayandırılması və bərpası, ləğvi qaydasını, həmçinin siyasi partiyanın fəaliyyətinin təşkili, üzvlük və maddi təminat məsələlərini müəyyən edir.

Qanun layihəsinin yenilənmiş variantında əvvəlik variantı ilə müqayisədə çoxsaylı yeniliklər var. Belə ki, tənqidlərə məruz qalmış bəzi müddəlarda tələblər yüngülləşdirilib, bəzi müddəlar isə sənəddən bütövlükdə çıxarılıb.

### Seçkilərdə 2 dəfə iştirak etməyən siyasi partiyaların ləğvinə dair tələb yeni versiyada tamamilə aradan qaldırılıb

Layihənin ilkin versiyasında siyasi partiya Azərbaycan ərazisində son 20 il daimi yaşayan Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyətli olan azı 200 vətəndaşı (təsisçilər) tərəfindən təsis edilə bilərdi. Yenilənmiş varinata görə, Azərbaycanda tam fəaliyyət qabiliyyətli olan azı 50 vətəndaş (təsisçilər) siyasi partiya təsis edə biləcək.

Partiya üzvlərinin sayı ilə bağlı müddəa da dəyişdirilib. Belə ki, əvvəlki versiyada siyasi partiyaların dövlət qeydiyyatına alınması üçün 10 min üzvünün olması tələb edilirdisə, yeni versiyada bu rəqəm 5000 nəfərə endirilib. Bununla yanaşı, dövlət qeydiyyatına alınmış siyasi partiyada üzv sayının 4500-dən aşağı olması halında həmin siyasi partiyanın dövlət qeydiyyatının ləğvi barədə məhkəmədə iddia qaldırılır. Həmçinin siyasi partiya üzvlərinin reyestri aparılacaq.

Layihənin əvvəlki versiyasında seçkilərdə 2 dəfə iştirak etməyən siyasi partiyaların ləğvinə dair tələb yeni verisyada tamamilə aradan qaldırılıb.

Sənəddə deyilir ki, siyasi partiyanın dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsinə yol verilmir.

Layihəyə görə, siyasi partiyalara il ərzində ianələrin yuxarı həddi minimum əmək haqqının 35 mislindən (hazırki anda 10500 manat) artıq ola bilməyəcək.

### Yeni qanun layihəsi Azərbaycanda siyasi münasibətlər sisteminə əvəzsiz töhfə verəcək

Sosial Tədqiqatlar Mərkəzinin (STM) sektor müdiri, politoloq Tural İsmayılov hesab edir ki, qanun hazırlanarkən daha bir örnək addım atılaraq aidiyyəti bütün sferaların fikirləri öyrənilib: " Qanun layihəsi Milli Məclisin saytında yerləşdirildi, yeni layihə ilə tanış olub ora əlavələrlə bağlı bütün maraqlı kəsimlər öz təkliflərini səsləndirdi. Milli Məclis tərəfindən partiyalarla dinləmələr keçirildi. Bütün siyasi qüvvələrdən yeni qanun layihəsinə dair təkliflər alındı, onların fikirləri və tövsiyələri nəzərə alındı. Eyni zamanda, ölkə ictimaiyyətinin tanınan siyasi şərhçiləri, media nümayəndələri və QHT təmsilçiləri ilə də dinləmələr keçirildi və təkliflərimizi səsləndirdik. Qanun böyük peşəkarlıqla formalaşdırıldı, dinləmələr vasitəsilə fikirlər toplandı və nəticədə plenar iclasda müzakirəyə çıxarılmağı məqsədəmüvafiq hesab edildi".

Politoloqun sözlərinə görə, Milli Məclisin müraciəti əsasında Sosial Tədqiqatlar Mərkəzi tərəfindən "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin qəbulundan öncə ictimai rəy sorğusu keçirilib: "Rəy sorğusunda vətəndaşların yeni qanun layihəsinin müddəaları da daxil olmaqla təqribən qırx sual ətrafında mövqeyi öyrənilib. Burada 21 suala cavablar qeyd olunub. Sorğu 1071 respondent arasında ev təsərrüfatlarında aparılıb. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95 faiz, əminlik intervalında 3 faiz təşkil edib.

Qanunda vacib nüanslar var ki, təhlükəsizlik və bir sıra məsələlərə görə mühüm əhəmiyyətə malikdir. Seçkilərdə iştirak edən partiyalar Milli Məclisdə təmsil olunmadıqları halda da dövlətdən maliyyələşəcək. Bu isə siyasi rəqabətin bütün nəzakət qaydalarını tapdaladığı qlobal siyasi camеə üçün də uğurlu örnək ola bilər. "Siyasi partiyalar haqqında" qanun layihəsi 66-dan artıq dəyişikliklərdən sonra yalnız parlament partiyaları və bütövlükdə Milli Məclisin təşəbbüsü ilə deyil, eləcə də parlamentdə təmsil olunmayan 50-dən çox partiyanın, həmçinin 3-cü sektorun, vətəndaş cəmiyyəti institutlarının birgə layihəsi kimi vətəndaşlarımızın maraqlarını özündə ehtiva edir. Partiyaların yaradılması üçün üzv tələbənin 10 mindən 5 min nəfərə endirilməsi ölkəmizdə səsvermə hüquqlu vətəndaşların bir faizindən də aşağı göstəricidir, bu özlüyündə yetərincə demokratik bir normadır və Venesiya Komissiyasının 2010-cu ildə qəbul etdiyi tövsiyələrə - yeni, səsvermə hüquqlu əhalinin bir faizi normasına tam uyğundur".

Belə qənaətə gəlmək olar ki, "siyasi partiyalar haqqında" yeni qanun layihəsi Azərbaycanda siyasi münasibətlər sisteminə əvəzsiz töhfə verəcək. Yeni qanun dövlətin siyasi partiyaların inkişafına olan yanaşmasını da özündə əks etdirir. Eyni zamanda siyasi mədəniyyətin inkişafını daha da stimullaşdıracaq.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**